Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

# Azərbaycan cəmiyyəti İsrail-Fələstin müharibəsinə dövlətlə tam həmrəy reaksiya göstərdi...

**Bu gün hər bir azərbaycanlı fəxrlə deyə bilər ki, xalqımız tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad təzahürlərdən qoruyaraq saxlamış və nəsildən-nəsilə ötürmüşdür. Şübhəsiz, bunda dini etiqadın rolu böyük olub.**

Təsadüfi deyil ki, günümüzədək gəlib çıxan milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir. Həyatına daxil olan bütün dinlərin, xüsusilə də İslamın əsl mahiyyətini dərk edən, saflığını qoruyan xalqımız onun insanı paklığa səsləyən müqəddəs çağırışlarına, mərasim və ayinlərinə tarixin bütün məqamlarında əməl etməyə çalışıb. Hətta insanların yaddaşında ateizm mərhələsi kimi qalan sovet dönəmində də xalqımız öz milli-mənəvi dəyərlərindən, dini baxışları və adət-ənənələrindən uzaqlaşmayıbmış, əksinə, milli-dini dəyərlərinə daha böyük istəklə sarılıb.

### Azərbaycan dövləti dünyada baş verən münaqişələrə də balanslı yanaşır

Məhz etnik-mədəni müxtəlifliklər arasındakı münasibətlərin düzgün tənzimlənməsi işində respublikamızın spesifik sülhsevər siyasətinin nəticəsidir ki, bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş ölkələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu nəinki inkar edə bilmir, üstəlik bu sosial münasibət və dövlət siyasətinin dünya üçün nümunə olduğunu təsdiqləyirlər. Çünki tarixən Azərbaycan cəmiyyətinə xas olan fərqli mədəniyyət, din, dillərə ehtiram kimi humanist münasibətin dövlət tərəfindən inkişaf etdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli fəaliyyət multikulturalizm fenomenini gerçək mahiyyətinə uyğun şəkildə dünya gündəmində aktuallaşdırıb.

Azərbaycan dövləti dünyada baş verən münaqişələrə də balanslı yanaşır. Yalnız islam təəssübkeşliyini önə çəkib digərlərinə qarşı ayrıseçkilyə yol vermir. Eyni zamanda müsəlmanlara qarşı törədilən haqsızlığa da biganə qalmır. Hazırda aktiv fazada olan İsrail-Fələstin münaqişəsini buna misal göstərə bilərik.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İsrail-Fələstin münaqişə zonasında baş verən son hadisələrlə bağlı İslam Əməkdaşlıq Təşkilatının İcraiyyə Komitəsinin nazirlər səviyyəsində keçirilən növbədənkənar iclasındakı çıxışında ölkəmizin hərbi əməliyyatların və eskalasiyanın dayandırılmasına çağırış etdiyini diqqətə çatdırıb. Xüsusilə, qadın və uşaqların da daxil olduğu mülki əhali arasında artan itkilərlə bağlı qurbanların ailələrinə başsağlığı ifadə olunub, yaralananlara şəfa arzulanıb. Dinc insanların həyatına qarşı təhlükənin, habelə mövcud vəziyyətin gərginləşdirilməsinin qarşısının alınması istiqamətində mülki və infrastruktur obyektlərinin, habelə müqəddəs yerlərin qorunmasının vacibliyi vurğulanıb.

Münaqişə coğrafiyasının mümkün genişlənməsi ilə bağlı xəbərlərin narahatlıq doğurduğu, bu xüsusda mövcud vəziyyətin aradan qaldırılması məqsədilə sülh danışıqlarına təhdid törədən addımlara qarşı beynəlxalq ictimaiyyətin birgə səylərinin əhəmiyyəti qeyd olunub.

İslam həmrəyliyinə hər zaman sadiq qalan ölkəmizin Fələstin xalqının dövlətçilik mübarizəsini dəstəklədiyini qeyd edən nazir Ceyhun Bayramov, Azərbaycanın beynəlxalq hüquq normaları, habelə müvafiq BMT qətnamələrinə uyğun olaraq İsrail-Fələstin münaqişəsinin Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olması ilə iki dövlət prinsipi əsasında həllinə tərəfdar olduğunu qeyd edib.



### Cəmiyyətimiz də bu məsələyə dövlətimizin xəttinə uyğun mövqe sərgiləyir

Münaqişənin nəticələrinin aradan qaldırılması istiqamətində Azərbaycanın səylərindən bəhs edən nazir Ceyhun Bayramov ölkəmizin Fələstinli qaçqınlara dəstək məqsədilə BMT-nin Yaxın Şərq Agentliyinə 1,6 milyon dollar maliyyə töhfəsi verdiyini diqqətə çatdırıb. Xüsusilə Qoşulmama Hərəkatına sədrliyimiz dövründə ölkəmizin Fələstin probleminə xüsusi diqqət yetirdiyi, bu xüsusda Hərəkatın Fələstin üzrə Nazirlər Komitəsinin işinin gücləndirilməsi istiqamətində fəaliyyət göstərdiyi bildirilib. Nazir Ceyhun Bayramov bundan sonra da Fələstin probleminin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə həllinə nail olmaq üçün səylərimizi davam etdirəcəyimizi bildirib.

Bəllidir ki, Azərbaycanda kifayət qədər yəhudi əsilli vətəndaşlarımız var. Bununla yanaşı bizim ölkəmiz həm də müsəlman ölkəsidir. Maraqlıdır ki, İsrail-Fələstin münaqişəsinə cəmiyyətimizin verdiyi reaksiya da balanslıdır. Bu yöndə heç bir gərginlik və aqresiyanın şahidi olmuruq. Cəmiyyətimiz də bu məsələyə dövlətimizin xəttinə uyğun mövqe sərgiləyir. Bu, bir daha ölkəmizdəki dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişafının göstəricisi sayıla bilər.

Müstəqil Azərbaycan beynəlxalq birliyin suveren aktoru kimi konstruktiv əsaslarla həyata keçirdiyi xarici siyasətində daim milli maraqlardan və müasir qlobal trendlərdən çıxış edərək ölkələr və xalqlar arasında əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə öz töhfəsini verməyə çalışır.

Ölkəmiz təmsil olunduğu beynəlxalq təşkilatların tribunalarından davamlı olaraq regional və qlobal əməkdaşlığa çağırışlar edir. Azərbaycan Yaxın Şərq coğrafiyası ilə bağlı siyasətində də regionda münaqişələrin sülh yolu ilə aradan qaldırılmasına və təhlükəsizliyin təmin olunmasına praktiki müstəvidə dəstək verir. Təsadüfi deyil ki, Azərbaycanla Yaxın Şərq ölkələrinin rəsmi şəxslərinin qarşılıqlı səfərləri çərçivəsində regional məsələlərin həlli yolları ilə bağlı müzakirələr aparılır və konstruktiv təkliflər irəli sürülür.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**